UOT 94
https://doi.org/10.30546/3006-0346.2025.3.87.583

# AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ TƏRƏFDAŞLIĞI VƏ POSTMÜNAQİŞƏ DÖVRÜNDƏ QARABAĞDA BƏRPA VƏ YENİDƏNQURMA SİYASƏTİ AZƏRBAYCAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI KONTEKSTİNDƏ

**ALİYƏ HACIYEVA**
*Milli Azərbaycan Tarix Muzeyinin dissertantı,*
*Azərbaycan Universiteti, müəllim*
*E-mail: hajiyeva_aliya04@mail.ru*
*https://orcid.org/0009-0005-8979-1498*

## Giriş

XX yüzillikdə Azərbaycan tarixində baş vermiş ən faciəli münaqişələrdən biri kimi Ermənistan-Azərbaycan münaqişəsi tarixə qara hərflərlə yazılmışdır. Bu münaqişənin nəticəsində I Qarabağ müharibəsi zamanı Azərbaycan 20 faizdən çox tarixi torpaqlarını itirmiş, minlərlə soydaşımız ermənilər tərəfindən amansızcasına qətlə yetirilmiş, Azərbaycana çox böyük maddi və mənəvi ziyan dəymişdir. 44 gün davam edən II Qarabağ müharibəsinin nəticəsində Azərbaycan xalqı və ordusu tarixi bir qələbəyə imza atmışdır. Təqribən 30 ildən artıq bir müddət ərzində işğal altında qalan tarixi Azərbaycan torpaqları yenidən geri qaytarılmış və Azərbaycan Respublikası düşmən qüvvələri üzərində şanlı qələbə qazanmışdır. Qələbə Azərbaycana sadəcə itirilmiş torpaqlarını geri qaytarmamış, o cümlədən Azərbaycana Cənubi Qafqaz və dünya miqyasında yeni perspektivlər və daha güclü, sağlam siyasi və iqtisadi əlaqələr üçün fürsətlər yaratmışdır. Bu tarixi qələbədən sonra Azərbaycanın bir dövlət kimi qarşısında dayanan ən önəmli vəzifələrdən biri isə işğaldan azad edilmiş torpaqlarını yenidən bərpa etmək, Qarabağı yenidən həm ölkə, həm də dünya iqtisadiyyatı, mədəniyyəti və turizminə qovuşdurmaq, 30 ildən artıq bir müddət ərzində doğma torpaqlarından didərgin düşmüş azərbaycanlıları güvənli və hərtərəfli cəhətdən təmin edilmiş formada öz yurdlarına köçürmək idi. Bu məsələnin həlli ilə bağlı addımlar müharibənin qələbə ilə nəticələnməsinin ardından artıq atılmağa başlanılmışdır. Belə ki, işğaldan azad edilmiş Azərbaycan torpaqlarının bərpası və yenidənqurulmasına "Böyük Qayıdış" adlı tədbirlər planı əsasında həyata keçirilməyə başlanılmışdır. "Böyük Qayıdış" layihəsi 2030-cu ilə qədər Azərbaycanın həyata keçirməyi planlaşdırdığı beş önəmli milli prioritetindən biri kimi müəyyənləşdirilmişdir. "Böyük Qayıdış" devizi altında Prezident İlham Əliyev tərəfindən Qarabağın bərpası və yenidənqurulması istiqamətində fərman və sərəncamlar qələbənin ardından artıq verilməyə başlanılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər isə olduqca planlı və məqsədyönlü xarakter daşımaqla, gələcəkdə də bölgənin dayanıqlı inkişafını təmin edəcək formada həyata keçirilməyə çalışılır. Bu da dövlətimizin bərpaya necə böyük diqqət və qayğı ilə yanaşdığının bariz göstəricisidir.

Qeyd etdiyimiz kimi, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda artıq yeni reallıqlar yaranmağa başlamışdır. Müharibədə haqlı zəfərin ardından həm Cənubi Qafqazda, həm də dünyada nüfuzu durmadan artan Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın bir sıra supergücləri və beynəlxalq təşkilatları tərəfindən qəbul edilib, dəstəklənməyə davam etmişdir. Müstəqil Azərbaycan, bildiyimiz kimi, dövlətçilik tarixində daim bütün dövlətlər və xalqlarla sülh və dostluq siyasəti çərçivəsində öz məqsəd və hədəflərini yerinə yetirməyə çalışmışdır. Bu məqsədlə də ölkəmiz dəfələrlə təmsil olunduğu beynəlxalq və regional təşkilatlarla olan tərəfdaşlığında, dövlətlətlərlə olan qarşılıqlı əlaqələrin və tərəfdaşlığın genişləndirilməsi, sülhün, təhlükəsizlik və əmin-amanlığın qorunması istiqamətində daim çalışmış, öz töhfələrini vermişdir. Ümumiyyətlə, qeyd etmək yerinə düşər ki, Azərbaycanın həyata keçirdiyi siyasət çərçivəsindəki irimiqyaslı bir çox layihələr region dövlətlərinin iqtisadi inkişafını və xalqlarının da rifahını təmin etmişdir. Məhz bu sadaladığımız amillər Azərbaycanın yalnız region dövlətləri ilə deyil, müxtəlif ölkələrlə olan ikitərəfli və çoxtərəfli əlaqələrinin sürətlə inkişafına təkan verir. Bu baxımdan Qarabağda həyata keçirilən və həyata keçirilməsi planlaşdırılan bir çox layihələr də region və dünya dövlətlərinin sadəcə Azərbaycanla deyil, ümumilikdə iqtisadi, siyasi, mədəni, turizm və s. əlaqələrinin inkişafına çox böyük töhfə verir. Buna görə də müasir dövrdə bir çox dövlətlər Qarabağda həyata keçirilən yenidənqurma və bərpa layihələrində fəal şəkildə iştirak etməyə can atırlar.

**Türkiyə-Azərbaycan strateji tərəfdaşlığının yaranması.** İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi bərpa və quruculuq işləri, Azərbaycanın ikitərəfli və çoxtərəfli əməkdaşlığı olan ölkələrlə arasında olan

münasibətlərin daha da möhkəmlənməsi və şaxələnməsi istiqamətində böyük rol oynamışdır. Bu baxımdan Azərbaycanın xarici siyasi əlaqələrində də çox böyük önəm kəsb edən, eyni soy və kökdən olan, ortaq tarixi və mədəniyyəti paylaşan dövlətlərin Qarabağın bərpa və quruculuq işlərində iştirakı daim Azərbaycan tərəfindən dəstəklənmişdir. Belə ölkələrdən biri və Azərbaycanın siyasi, iqtisadi və mədəni əlaqələrində çox böyük yeri olan dövlət Türkiyə Cümhuriyyətidir. Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" adı ilə xarakterizə etdiyi Azərbaycan-Türkiyə münasibətlərinin ideoloji əsası XIX əsrin əvvəllərində hər iki dövlətin maarifçi ziyalıları tərəfindən atılmışdır. Dövlətlər arasında ilk rəsmi münasibətlər 1918-ci ildə AXC zamanında yaradılmışdır. Sonrakı dövrlərdə baş verən hadisələrin nəticəsində formal şəkildə Azərbaycan və Türkiyə beynəlxalq və regional aləmdə bir-birinə rəqib olan təşkilatların üzvləri olmuşlar. Lakin 1991-ci ildə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri məhz Türkiyə olmuşdur. Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması digər dünya dövlətləri üçün də nümunə olmuş, bundan sonra Azərbaycanın müstəqil dövlət kimi tanınma prosesi sürətlə getməyə başlamışdır [6, 100].

Qeyd etmək lazımdır ki, hər iki dövlət bir-biri üçün olduqca mühüm strateji əhəmiyyətə sahibdir. Belə ki, Türkiyə üçün Cənubi Qafqaz siyasəti hər zaman tarix boyu ön planda olan bir məsələ olmuşdur. Azərbaycanın Cənubi Qafqazdakı strateji önəmli yerə sahib olması isə demək olar ki, bütün dünya dövlətləri daxil olmaqla Türkiyənin ən qədim zamanlardan bildiyi bir məsələ idi. Azərbaycanın müstəqillik əldə etməsinin ardından Türkiyənin Cənubi Qafqaz siyasəti Bakı mərkəzli olmuşdur. Türkiyənin keçmiş xarici işlər və daha sonra baş naziri olmuş Əhməd Davudoğlu Türkiyə üçün Cənubi Qafqazın əhəmiyyətini Türkiyənin Asiyaya çıxışının təmin edilməsi, Qərbi Asiya, Xəzər hövzəsi və Şimal-Cənub dəhlizində geosiyasi məkan kimi göstərmişdir. Həmçinin bunun üçün "Azərbaycanın regionda güclü olmadan Türkiyənin bu regionda güclü olmayacağını" da qeyd etmişdir. Azərbaycanın sahib olduğu enerji ehtiyatları da Türkiyənin enerji ehtiyaclarının təmin olunması baxımından önəmli əhəmiyyət kəsb etmişdir. Bundan başqa Türkiyənin nəqliyyat sahəsində də Avropa ilə Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında körpü və tranzit ölkə olmaq iddiasında da Azərbaycan mühüm rol oynayırdı. Eynilə Azərbaycan üçün də Türkiyə ilə əlaqələrin qurulması və müsbət məcrada davam etdirilməsi olduqca önəmli bir məsələ olmuşdur. Bildiyimiz kimi, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub kəsişməsində yerləşir, lakin buna baxmayaraq açıq dənizlərə birbaşa çıxışı yoxdur. Bu hal müstəqilliyini təzəcə qazanmış bir dövlət üçün XX əsrdə olduqca önəmli bir problem idi. Bu həmin ölkənin iqtisadi blokadada olması mənasına da gəlirdi. İqtisadi çətinlikləri aradan qaldırmaq üçün Azərbaycanın etibarlı bir şəkildə, təhlükəzisliyinə və xarici siyasi əlaqələrinə zərər gəlmədən sahib olduğu enerji ehtiyatlarını xarici bazara çıxarması lazım idi. Bunun üçün ən etibarlı tərəfdaş həm iki ölkə arasında qədimdən bəri mövcud olan tarixi bağlar və qarşılıqlı etimad, həm də bu vaxta qədər Qərb dövlətləri olan siyasi və iqtisadi əlaqələri baxımından Türkiyə idi. Azərbaycanın nəqliyyat dəhlizində rolunun möhkəmləndirilməsi baxımından da Türkiyə Azərbaycan üçün strateji əhəmiyyətli idi. Bu və digər məsələlər hər iki dövlətin bir-biri üçün strateji, siyasi, iqtisadi, mədəni sahələrdə əhəmiyyətini daim diqqət mərkəzində saxlamışdır və hər iki dövlət bu məsələlərin həyata keçirilməsində dostluq, qardaşlıq və sülh çərçivəsində çıxış etmişdir [2, 102-107].

**Türkiyənin Qarabağ münaqişəsində mövqeyi.** O cümlədən Qarabağ münaqişəsinin ortaya çıxıdığı 1988-ci ildən etibarən Türkiyə Cümhuriyyəti münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini daim dəstəkləmişdir. Bu məsələnin söylənilən plan üzrə həlli istiqamətində də əlindən gələni etmişdir. Belə ki, məsələni beynəlxalq təşkilatların gündəminə gətirmiş, bu təşkilatlarla Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qərarların hazırlanması və qəbul edilməsində iştirak etmiş, Ermənistanla sərhəd qapılarını, hava dəhlizini bağlamışdır. Lakin qeyd etmək də yerinə düşər ki, Türkiyə Cümhuriyyəti münaqişənin olduğu fərqli dövrlərdə fərqli taktiki gedişlər etmişdir. Təbiidir ki, bunlar qəbul edilən hallardır, çünki dövlətçilik siyasəti bunu tələb edirdi. Belə ki, Türkiyənin Qarabağ siyasətini biz üç mərhələdə dəyərləndirə bilərək. Əvvəla, Sovet İttifaqı dağılmamışdan qabaq Türkiyə Qarabağ münaqişəsinin İttifaqın daxili işi olaraq qiymətləndirmişdir. Lakin verdiyi açıqlamalarda Türkiyə tərəfi daim münaqişənin dinc yolla həll edilməsinin tərəfdarı olduğunu vurğulamışdır.1990-cı illərdə baş verən hadisələr zamanı eyni dili və mədəniyyəti bö-

lüşdükləri azərbaycanlılarla təbii olaraq yaxınlıq hiss edən türk milləti yaşanan qətliama qarşı mənfi reaksiyasını ortaya qoymaqdan çəkinməmişdir. Ermənistanın Azərbaycana hücumlarının artması, 1992-ci il mayın 8-də Şuşanı, mayın 17-də Laçını işğal etməsi, 1993-cü ildə aprelin 3-də Kəlbəcərin işğalı və daha sonra ermənilərin Füzuliyə hücuma keçməsi Türkiyə hökumətinin bəzi tədbirlər almasına səbəb olmuşdur. Artıq Qarabağ münaqişəsinə Türkiyənin mövqeyi yeni bir mərhələyə keçmişdi. Türkiyə Ermənistan hücumları ilə bağlı BMT Təhlükəsizlik Şurasının iclasını çağırmış və Ermənistanın Azərbaycana olan hücumlarını pisləyən bir layihə mətni hazırlayaraq onu Təhlükəsizlik Şurasına təqdim etmişdir. 1993-cü ildə isə Türkiyə Cümhuriyyəti Ermənistanla olan sərhəd qapılarını bağlamışdı [1, 102-107]. 2003-cü ildə Azərbaycana səfər etmiş Rəcəb Tayyib Ərdoğan Qarabağ münaqişəsində Türkiyənin əvvəl qəbul etdiyi siyasətini davam etdirəcəyini bildirmişdi. 2008-ci ildə BMT Baş Assambleyasında keçirilən səsvermədə Türkiyə Azərbaycanın bütövlüyünü yenidən dəstəklədiyini bildirmişdi. Rəcəb Tayyib Ərdoğan Qarabağ münaqişəsinin Azərbaycanın istədiyi formada və onun ərazi bütövlüyü təmin olunmadan həll edilmədiyi müddətdə Ermənistanla sərhədlərinin açılmaması siyasətinin davam etdiriləcəyini bildirmişdir. Bundan sonrakı mərhələdə də davamlı olaraq Türkiyə dövlət xadimləri xarici ölkələrin, əsasən də Mink Qrupunun həmsədri olan dövlətlərlə görüşlərində Qarabağ münaqişəsinin həllinin sürətləndirilməsi istiqamətində tədbirlər görülməsini tələb etmişlər [6, 124-130].

**Postmünaqişə dövründə Qarabağda həyata keçirilən bərpa və yenidənqurma layihələrində Türkiyənin iştirakı.** Nəhayət ən müasir dövrdə, 44 gün davam edən II Qarabağ müharibəsi zamanında da Türkiyə Azərbaycana olan dəstəyini daim ifadə etmiş və Azərbaycanın mübarizəsinin haqlı olduğunu deməkdən çəkinməmişdir. İstər müharibə dövründə, istərsə də müharibədən sonrakı dövrdə Türkiyənin Azərbaycana olan mövqeyi və dəstəyi dəyişməmiş, əksinə iki ölkə arasında olan siyasi, iqtisadi və mədəni əlaqələr Qarabağın geri qaytarılmasından sonra daha da artırılmışdır. Təbiidir ki, qələbədən sonra Azərbaycan da daim onu dəstəkləyən dövlətlərin, xüsusilə də Türkiyənin Qarabağda həyata keçiriləcək bərpa və yenidənqurma tədbirlərində iştirakını istəmiş və bununla əlaqədar iki dövlət arasında razılaşdırmalar həyata keçirilmişdir. Prezident İlham Əliyevin dediyi kimi, "Hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. Əlbəttə ki, ilkin tərəfdaşlarımız türk qardaşlarımızdır" [9]. Belə ki, "Böyük Qayıdış"ın ilk mərhələsi olan işğaldan azad edilmiş torpaqların minalardan təmizlənməsi və zəruri infrastrukturla (yol, su, elektrik və s.) təmin edilməsi prosesində Türkiyə yaxından iştirak etmişdir. Azərbaycana Türkiyə tərəfindən 20-ə yaxın minatəmizləyən maşın göndərilmişdir [8]. O cümlədən, Qarabağda çəkilən bir çox yol infrastruktur layihələrinin həyata keçirilməsində Türkiyə şirkətləri yaxından iştirak etmişdir. Hətta Azərbaycan hökuməti tərəfindən yenidənqurma və bərpa prosesi zamanı inşaat layihələrində Türkiyə modelinin istifadə olunması istiqamətində qərar qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2020-ci il noyabrın 17-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalanmışdı. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın göz bəbəyi olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu baxımdan olduqca mühüm əhəmiyyətə sahib olan və "Zəfər yolu" adını almış bu yolun tikintisi yerli şirkətlə yanaşı məhşur türk şirkəti olan "Kolin inşaat"la birgə həyata keçirilmişdi. Layihəyə əsasən bu yolun və onun üzərində inşa olunan körpü və tunellərin inşasının bir hissəsini Türkiyə şirkətləri həyata keçiriblər. Bundan başqa, Azərbaycanda "Zirvə Holdinq", "Kalyon Holdinq", "Cengiz" kimi bir sıra nüfuzlu türk şirkətləri də Qarabağda bərpa və quruculuq işlərində uğurla fəaliyyət göstərirlər [7].

Prezidentin 2021-ci il mayın 29-da imzaladığı sərəncama əsasən Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqları bu holdinqin tərkibinə daxil olan şirkətlərə icarəyə verilmişdir. Sərəncamda qeyd edilmişdir ki, Azərbaycanın normativ hüquqi aktlarına uyğun olaraq Qaşqaçay filiz yatağı "Eti Bakır A.Ş." şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə öyrənilmə, tədqiqat, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilsin. Bu qızıl yataqları işğaldan yeni azad olunan Kəlbəcər rayonunda yerləşir. "Eti Bakır A.Ş" 2004-cü

ildə Cengiz Holdinqin tərkibinə daxil edilən şirkətdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən inşasında Azərbaycanın Türkiyə şirkətlərinə böyük əhəmiyyət verdiyini göstərən çox önəmli fakt baş nazir Əli Əsədovun Ankarada keçirilən Türkiyə-Azərbaycan İş Adamları Forumunda çıxışında söylədiyi aşağıdakı fikirdir: "Türk şirkətləri artıq infrastruktur layihələrini icra etməyə başlayıblar. "Zəfər yolu" adlanan Füzuli-Şuşa yolu, həmçinin Toğana-Kəlbəcər yolunun tikintisində artıq türk şirkətləri iştirak edirlər. Ümumiyyətlə, bərpa işlərinin layihələrində türk qardaşlarımızı görməkdən çox məmnunuq".

2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi" imzalanmışdır. "Şuşa Bəyannaməsi" ilə də qarşılıqlı əməkdaşlıq əlaqələri daha yüksək bir mövqeyə çatmış, Türkiyə dövlətinə bağlı olan şirkətlərin Qarabağın bərpası prosesində xüsusi fəallıqla iştirak etməsinə zəmin yaratmışdır. Bunu "Azərbaycan-Türkiyə İş Adamları Birliyi" (ATİB) İdarə Heyətinin sədri Cemal Yanqının çıxışı da açıq şəkildə göstərir. O bildirmişdir ki, "Avropadakı, Afrikadakı bütün türk şirkətlərini Qarabağın bərpası üçün dəvət edərək bildirirəm ki, Azərbaycanda iş görmək üçün əlverişli mühit var və burada hər hansı bir problemlə üzləşməyəcəksiniz. Qarabağda hazırda infrastruktur işləri gedir və bitdikdən sonra o bölgə çox müasir və inkişaf edən bir yer olacaq" [4].

Prezident İlham Əliyev tərəfindən 3 may 2021-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalanmışdır. İşğaldan azad edilən torpaqlarımızın "yaşıl enerji" zonasına çevrilməsi layihələrinin həyata keçirilməsi prosesində türk şirkətlərinin rolu olduqca əhəmiyyətlidir. 2021-ci ilin dekabr ayında Bakıda keçirilən "Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu" Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə strateji enerji əməkdaşlığını daha da möhkəmləndirilməsi və Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı layihələrinin həyata keçirilməsində türk şirkətlərinin iştirakının təmin edilməsi ilə bağlı önəmli addım oldu. Forumda çıxışı zamanı Azərbaycanın energetika naziri Pərviz Şahbazov qeyd etmişdir ki, "Türkiyə bərpa olunan enerjinin inkişafı və elektrik enerjisi bazarının liberallaşdırılması ilə bağlı zəngin təcrübəsini bizimlə bölüşür və bu, ölkələrimizin enerji transformasiya prosesində birgə addımlarına dəstək verir". Həmçinin, işğaldan azad edilmiş ərazilərdə günəş, külək enerjisi potensialı, zəngin daxili su ehtiyatları layihələri üzrə planlaşdırılan hərracların, "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı digər planların Türkiyə investorları üçün geniş üfüqlər açdığı da qeyd edilmişdi. Türk şirkətləri də azad edilmiş ərazilərdə bərpa olunan enerji layihələrində iştirakda olduqca maraqlıdırlar. Xüsusilə Laçın və Kəlbəcərdə külək elektrik stansiyalarının tikintisi layihələri üzrə əməkdaşlıq imkanları var. Azərbaycanın İqtisadiyyat Nazirliyi tərəfindən də türk şirkətlərinin Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi layihələrinin həyata keçirilməsi prosesində iştirakının önəmini qeyd etməklə yanaşı, həmin şirkətlərə dəstək verəcəklərini də açıqlamışdır.[5]

Qarabağda həyata keçirilən, bölgənin bərpası və yenidənqurulmasında önəmli rol oynayan layihələrdən biri də "Dost Aqropark" layihəsidir. "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Layihənin birinci mərhələsi artıq başa çatdırılmış, digər mərhələlərin də tezliklə bitirilməsi planlaşdırılır. Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunması əsas götürülən "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərməyi planlaşdırır. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Bu da, bölgəyə köçürülən əhalinin iş yerləri ilə təmin edilməsi, ərazinin iqtisadi inkişafını təmin edəcək. Həmçinin bu kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə də mühüm töhfə verəcək [11].

Qarabağ bölgəsində həyata keçirilən növbəti sosial-iqtisadi əhəmiyyətli layihələrdən biri də hava limanlarının tikilməsidir. Bölgə üçün olduqca mühüm əhəmiyyət kəsb edən hava limanı layihələrinin həyata keçirilməsi həm Qarabağın paytaxtla sürətli və intensiv əlaqələrin təmin edilməsi, həm də yerli əhalinin və bölgənin inkişafı üçün çox böyük iqtisadi imkanlar yaratmaqla, Azərbaycan Türkiyə daxil olmaqla digər ölkələrlə olan hava nəqliyyatını artırır. Belə ki, beynəlxalq hava limanlarının açılması

həm də Türkiyə və Azərbaycan arasında olan bölgə üzrə rahat gediş-gəlişi təmin etməklə turizm əlaqələrini inkişaf etdirəcək, ən önəmlisi iki dövlət arasında logistik inteqrasiyanı da artırmaqda mühüm rol oynayacaq strateji layihələrdir. Məhz işğaldan azad olunmuş torpaqlarda yerləşən hər üç beynəlxalq hava limanının açılmasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan şəxsən iştirak etmişdir [10].

Həmçinin qeyd etmək yerinə düşər ki, Qarabağda həyata keçirilən layihələrdə birgə iştirak gələcəkdə region, türk dövlətləri vasitəsilə həyata keçiriləcək layihələrdə Azərbaycanın, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin əhəmiyyətini qəbul etdiyini və dəstək olacağının da bariz göstəricisidir. Bununla yanaşı Türkiyənin bərpa prosesində iştirak etməsi, ona sadəcə Azərbaycanla olan siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrini gücləndirmək imkanı vermir, həmçinin layihələrdən yüksək məbləğdə gəlir də əldə edir və bərpa prosesində iştirak edən digər dövlətlərlə əlaqələrin qurulmasında vasitəçilik edir. Belə ki, “Turan”ın yaradılmasını istəyən Türkiyə üçün Zəngəzur dəhlizi layihəsi olduqca mühüm əhəmiyyət kəsb edir. Məhz bu layihə vasitəsilə sadəcə Azərbaycan - Türkiyə əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqla kifayətlənməyəcək, o cümlədən qardaş dövlət digər türk dövlətləri ilə də birbaşa əlaqə qurmaq imkanına sahib olacaq. Həmçinin Türkiyənin daşınmalar zamanı İrandan olan asılılığı da olduqca azalacaq. Türkiyənin Orta Asiya ilə olan ticarət həcminin artırılmasına da müsbət yönümdə təsir göstərəcək [3, 48].

## Nəticə

Türkiyə və Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin yaradılması və qorunması hər iki dövlət üçün diqqət mərkəzində olan bir məsələ olmuşdur. Həm Türkiyə, həm də Azərbaycan bir-biri üçün strateji əhəmiyyətlilik baxımından önəm kəsb edən dövlətlərdir. Qarabağ münaqişəsi zamanı Türkiyənin mövqeyi də bir daha bunu sübut edir. Sadaladığımız bu layihələr və onların həyata keçirilməsində Türk şirkətlərinin iştirakı, o cümlədən işğaldan azad edilmiş torpaqlarda təməl atma layihələrində və tamamlanmış layihələrin açılışında Türkiyə Prezidentinin şəxsən iştirak etməsi Türkiyənin istər münaqişə, istərsə müharibə, istərsə də müharibədən sonrakı dövrdə Cənubi Qafqaz regionunda Azərbaycanın rolunu və strateji əhəmiyyətini yüksək qiymətləndirdiyini göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Atmaca T. 20.Yüzyıl Sonunda Azərbaycan-Türkiyə Münasibətləri (1993-1998). – Ankara: - “Şafak Matbaası”. – 1999. – 336 s.
2. Cahangirli C. Müasir dövrdə Azərbaycan – Türkiyə münasibətləri. – Bakı: - “Araz” nəşriyyatı. – 2006. – 109 s.
3. Əliyev Z. “Zəngəzur Dəhlizi: geosiyasi reallıqlar və perspektivlər”. – Bakı. – “Tərəqqi”. – 2023. – 108 s.
4. Hacıyeva A. “Karabağ’ın Yeniden İnşasında Türk Şirketlerinin Rolü”. VI. International New York Academic Research Congress On Humanities And Social Sciences Proceedings Book. – Türkiyə: - “BZT Akademi Yayınevi”. – 2022. – 446 s.
5. Hacıyeva A. “Qarabağın yaşıl enerji zonasına çevrilməsində türk şirkətlərinin rolu”. AMEA Qafqazşünaslıq İnstitutu, Cənubi Qafqaz: Mövcud vəziyyət və perspektivlər, respublika elmi konfrans materialları.Tezislər. – Bakı: - “Aspoliqraf”. – 2023.- s. 106-107.
6. Vəliyev C. Azərbaycan-Türkiyə münasibətləri (1991-2016) / Azərbaycan Respublikasının Xarici Siyasətinin Əsas İstiqamətləri (1991-2016) / məqalələr toplusu/ - Bakı: - “Poliart” MMC. – 2017. – s. 97-125.
7. https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf İstinad tarixi: 02.06.2025
8. https://oxu.az/ordu/turkiyeden-azerbaycana-gonderilen-minatemizleyenler-ugurla-sinaqdan-kecib-foto?ysclid=mbf1g4d4h6500553556 İstinad tarixi: 02.06.2025
9. https://president.az/az/pages/view/azerbaijan/contract İstinad tarixi:02.06.2025
10. https://president.az/az/pages/view/azerbaijan/karabakh2 İstinad tarixi:02.06.2025
11. https://president.az/az/articles/view/57642 İstinad tarixi: 02.06.2025



## XÜLASƏ

Məqalədə Türkiyə-Azərbaycan strateji tərəfdaşlıqlarının yaranması tarixinə toxunulmuş, ilk əlaqələrin yaradıldığı dövrlərdən Azərbaycanın Türkiyə üçün strateji əhəmiyyəti və Türkiyənin Azərbaycan üçün strateji əhəmiyyəti məsələləri araşdırılmışdır. Həmçinin Qarabağ münaqişəsi zamanı Türkiyənin mövqeyi, problemə yanaşması araşdırılmışdır. Türkiyənin Qarabağ münaqişəsində mövqeyi 3 mərhələyə ayrılaraq, tədqiq olunmuşdur.

Qarabağ münaqişəsinin ilk mərhələsində Türkiyə münaqişəyə İttifaqın daxili işi kimi baxmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra və ermənilərin Azərbaycanın tarixi torpaqlarını işğalı və günahsız əhalinin qətlə yetirilməsindən sonra Türkiyənin münaqişəyə mövqeyi dəyişmiş və Ermənistanla əlaqələrində dəyişikliklər baş vermişdir. Münaqişə boyunca Azərbaycana verdiyi dəstək və II Qarabağ müharibəsindən sonra həyata keçirilən bərpa və yenidənqurma layihələrində iştirakı məsələləri araşdırılmışdır.

**Açar sözlər:** *Türkiyə, Azərbaycan, Qarabağ münaqişəsi, bərpa və yenidənqurma.*

**Алия А.ГАДЖИЕВА**

**СТРАТЕГИЧЕСКОЕ ПАРТНЁРСТВО АЗЕРБАЙДЖАНА И ТУРЦИИ И ПОЛИТИКА ВОССТАНОВЛЕНИЯ И РЕКОНСТРУКЦИИ В КАРАБАХЕ В ПОСТКОНФЛИКТНЫЙ ПЕРИОД В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОГО СОТРУДНИЧЕСТВА**

**РЕЗЮМЕ**

В данной статье рассматривается история формирования стратегического партнёрства между Турцией и Азербайджаном, начиная с первых этапов установления двусторонних отношений. Исследуется стратегическая значимость Азербайджана для Турции, а также значение Турции для внешнеполитического и геоэкономического курса Азербайджана.Особое внимание уделяется позиции Турции в период нагорно-карабахского конфликта, а также её подходу к урегулированию данного вопроса. Позиция Турции в отношении конфликта проанализирована поэтапно и условно разделена на три периода. На первом этапе Турция рассматривала конфликт как внутреннее дело Советского Союза. Однако после обретения Азербайджаном независимости и начала вооружённой агрессии Армении, сопровождавшейся оккупацией исторических территорий Азербайджана и массовыми убийствами мирного населения, позиция Турции изменилась, что привело к пересмотру её отношений с Арменией.В статье также анализируется поддержка, которую Турция оказывала Азербайджану на протяжении конфликта, а также её активное участие в послевоенных восстановительных и инфраструктурных проектах на освобождённых территориях после Второй Карабахской войны. Эти процессы рассматриваются как важный элемент углубления двустороннего сотрудничества в политической и экономической сферах в постконфликтный период.

**Ключевые слова:** *Турция, Азербайджан, Нагорно-Карабахский конфликт, восстановление и реконструкция.*

**Aliya A.HAJIYEVA**

**AZERBAIJAN–TURKEY STRATEGIC PARTNERSHIP AND POST-CONFLICT RECONSTRUCTİON POLICY IN KARABAKH IN THE CONTEXT OF AZERBAIJAN–TURKEY COOPERATION**

**SUMMARY**

The article examines the historical development of strategic partnerships between Turkey and Azerbaijan, focusing on the establishment of their initial relations and the evolving mutual strategic significance of each country for the other. It investigates Azerbaijan's importance within Turkey's regional policies and, conversely, Turkey's vital role in Azerbaijan's geopolitical and economic orientation. Additionally, the study explores Turkey's position during the Nagorno-Karabakh conflict, analyzing its approach to the issue in detail. Turkey's stance on the conflict is divided into three chronological phases. In the first phase, Turkey considered the conflict as an internal matter of the Soviet Union. However, following Azerbaijan's declaration of independence and the occupation of Azerbaijani historical territories by Armenian forces, accompanied by civilian massacres, Turkey's position underwent a substantial shift, leading to a reevaluation of its relations with Armenia.The article also addresses Turkey's support for Azerbaijan throughout the conflict and its active participation in post-war reconstruction and rehabilitation initiatives following the Second Karabakh War. These efforts demonstrate the deepening of bilateral cooperation in both political and economic dimensions during the post-conflict period.

**Keywords:** *Turkey, Azerbaijan, Nagorno-Karabakh conflict, reconstruction and rehabilitation.*